*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (4) 2025*

***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received:21.03.2025***
***Kabul tarihi |Accepted:13.06.2025***
***Yayın tarihi |Published:25.08.2025***

**Kərəm Mansurov**

***https://orcid.org/0009-0006-9390-6654***
*PhD student, Baku State University, Department of Constitutional Law, Azerbaijan, mansurovkerem@yahoo.com*

***Atıf Künyesi | Citation Info***

Mansurov, K. (2025). Azərbaycan, Rusiya və Qazaxıstan Respublikalarının Prokurorluq Orqanlarının Konstitusiya-Hüquqi Statusunun Müqayisəli Təhlili. *Akademik Tarih ve Düşünce Dergisi*, *12* (4), 249-264.

# Azərbaycan, Rusiya və Qazaxıstan Respublikalarının Prokurorluq Orqanlarının Konstitusiya-Hüquqi Statusunun Müqayisəli Təhlili

***Xülasə***

*Bu tədqiqatda Azərbaycan, Rusiya və Qazaxıstan respublikalarının prokurorluq orqanlarının konstitusiya-hüquqi statusu müqayisəli aspektdə araşdırılır. Məqalənin aktuallığı adı çəkilən ölkələrdə prokurorluq institutunun hakimiyyət bölgüsü sistemindəki yerinin müəyyənləşdirilməsinin elmi-nəzəri və praktiki əhəmiyyəti ilə şərtlənir. Tədqiqat hər üç ölkənin konstitusiyalarının prokurorluğa aid müddəalarının, müvafiq qanunvericilik aktlarının və elmi ədəbiyyatın sistemli təhlili metodologiyasına əsaslanır. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, post-sovet məkanında yerləşən bu üç dövlətdə prokurorluğun konstitusiya-hüquqi statusu vahid model əsasında formalaşdırılsa da, prokurorluq orqanlarının funksional təyinatı və səlahiyyət dairəsi baxımından əhəmiyyətli fərqlər mövcuddur. Məqalədə hər üç ölkənin prokurorluq sistemlərinin müqayisəli təhlili aparılmış, oxşar və fərqli cəhətlər aşkarlanmış, bu fərqlərin hüquqi və tarixi əsasları araşdırılmışdır. Tədqiqat göstərir ki, Azərbaycan, Rusiya və Qazaxıstan respublikalarında prokurorluq orqanlarının konstitusiya-hüquqi statusunun oxşarlığı bu ölkələrdə prokurorluğun vahid modelinin mövcudluğu ilə əlaqədardır. Bununla yanaşı, qanunvericilikdə təsbit olunmuş prokurorluq orqanlarının funksiyaları və səlahiyyətləri arasında mühüm fərqlər də müşahidə edilir.*

***Açar sözlər:*** *Prokurorluq Orqanları, Konstitusiya-Hüquqi Status, Hakimiyyət Bölgüsü, Məhkəmə Hakimiyyəti, Qanunçuluğun Təminatı, Cinayət Təqibi*

cc BY NC Creative Commons Licence

# Comparative Analysis of the Constitutional and Legal Status of Prosecutorial Authorities in Azerbaijan, Russia and Kazakhstan

***Abstract***

*This study compares the constitutional and legal status of the public prosecutor's office in the republics of Azerbaijan, Russia and Kazakhstan. The importance of the article stems from the scientific, theoretical and practical significance of determining the place of the public prosecutor's office in the system of separation of powers in these countries. The study is based on a systematic analysis of the provisions of the constitutions of all three countries relating to the prosecution service, the relevant legislation, and the scientific literature. The results of the study reveal that, although the constitutional and legal status of the prosecution services in these three post-Soviet countries is based on a single model, there are significant differences in terms of the functional purpose and scope of authority of the prosecution services. The article provides a comparative analysis of the prosecutorial systems of the three countries, highlighting their similarities and differences and examining the legal and historical foundations of these differences. The study shows that the similarity in the constitutional and legal status of the prosecutorial institutions in the republics of Azerbaijan, Russia, and Kazakhstan stems from the existence of a single prosecutorial model in these countries. At the same time, significant differences are observed between the duties and powers of the prosecutorial institutions as defined in the legislation.*

***Keywords:*** *Prosecutorial Institutions, Constitutional-Legal Status, Separation of Powers, Judicial Authority, Ensuring the Rule of Law, Criminal Prosecution*

## Giriş

Müasir demokratik dövlətlərdə hakimiyyət bölgüsü prinsipinin təmin edilməsi və hüquqi dövlət quruculuğu prosesində prokurorluq orqanlarının rolu və konstitusiya-hüquqi statusu xüsusi əhəmiyyət kəsb edir. Post-sovet məkanında yerləşən Azərbaycan, Rusiya və Qazaxıstan respublikalarında prokurorluq institutunun transformasiyası və onun hakimiyyət mexanizmindəki yerinin müəyyənləşdirilməsi həm nəzəri, həm də praktiki baxımdan aktual məsələlərdən biridir. Sovet İttifaqının dağılmasından sonra hər üç ölkə öz hüquq sistemlərini yenidən formalaşdırmaq məcburiyyətində qalmış və bu prosesdə prokurorluq orqanlarının konstitusiya-hüquqi statusu da əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Sovet hüquq sistemindən miras qalmış prokurorluq modelinin müasir demokratik dəyərlərə uyğunlaşdırılması prosesi bu ölkələrdə fərqli inkişaf yolları keçmişdir. Bu baxımdan, adı çəkilən ölkələrin prokurorluq orqanlarının konstitusiya-hüquqi statusunun müqayisəli təhlili onların oxşar və fərqli cəhətlərinin aşkarlanması, hüquqi dövlət quruculuğu kontekstində prokurorluq institutunun inkişaf perspektivlərinin müəyyənləşdirilməsi üçün zəruri şərtdir. Azərbaycan, Rusiya və Qazaxıstan respublikalarının prokurorluq orqanlarının konstitusiya-hüquqi statusunun müqayisəli təhlili, həmçinin bu ölkələrin hüquq sistemlərinin inkişaf

tendensiyalarını və perspektivlərini müəyyənləşdirmək baxımından da aktualdır. Belə ki, prokurorluq orqanlarının konstitusiya-hüquqi statusu, onların hakimiyyət bölgüsü sistemindəki yeri və rolu, funksional təyinatı və səlahiyyət dairəsi ilə bağlı məsələlər hüquqi dövlət quruculuğu prosesinin mühüm tərkib hissəsidir. Müasir konstitusionalizm çərçivəsində prokurorluq orqanlarının hakimiyyət bölgüsü sistemindəki yerinin dəqiq müəyyənləşdirilməsi mürəkkəb nəzəri-hüquqi problemdir. Azərbaycan, Rusiya və Qazaxıstan respublikalarında prokurorluq orqanlarının konstitusiya-hüquqi statusu ilə bağlı əsas problem onların hakimiyyətin hansı qoluna aid edilməsi və ya müstəqil konstitusion institut kimi tanınması məsələsidir. Azərbaycan Respublikasının Konstitusiyasında prokurorluq orqanları məhkəmə hakimiyyəti fəslində təsbit edilmişdir. Konstitusiyanın 133-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir, cinayət işləri başlayır və istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, məhkəmə qərarlarından protest verir. Rusiya Federasiyasının Konstitusiyasında prokurorluq orqanları ayrıca fəsildə deyil, "Məhkəmə hakimiyyəti və prokurorluq" adlı 7-ci fəsildə təsbit edilmişdir. Konstitusiyanın 129-cu maddəsinə əsasən, Rusiya Federasiyasının Prokurorluğu vahid mərkəzləşdirilmiş sistem təşkil edir və qanunların icrasına nəzarəti həyata keçirir. Qazaxıstan Respublikasının Konstitusiyasında prokurorluq orqanları "Məhkəmə və ədalət mühakiməsi" adlı 7-ci bölmədə təsbit edilmişdir. Konstitusiyanın 83-cü maddəsinə əsasən, Qazaxıstan Respublikasının Prokurorluğu dövlət adından qanunların, Prezidentin fərman və sərəncamlarının, hökumətin qərarlarının dəqiq və vahid şəkildə tətbiqinə ali nəzarəti, eləcə də cinayət təqibini həyata keçirir, dövlət ittihamını müdafiə edir və dövlətin maraqlarını məhkəmədə təmsil edir. Hər üç ölkənin konstitusiyalarında prokurorluq orqanlarının hüquqi statusu ilə bağlı oxşar cəhətlər mövcuddur. Belə ki, hər üç ölkədə prokurorluq orqanları vahid mərkəzləşdirilmiş sistem təşkil edir və qanunların icrasına nəzarəti həyata keçirir. Bununla yanaşı, prokurorluq orqanlarının funksional təyinatı və səlahiyyət dairəsi ilə bağlı müəyyən fərqlər də mövcuddur. Azərbaycan Respublikasında prokurorluq orqanları cinayət işləri başlamaq və istintaq aparmaq, məhkəmədə dövlət ittihamını müdafiə etmək, məhkəmədə iddia qaldırmaq və məhkəmə qərarlarından protest vermək səlahiyyətlərinə malikdir. Rusiya Federasiyasında prokurorluq orqanları əsasən qanunların icrasına nəzarəti həyata keçirir və cinayət təqibini həyata keçirmək səlahiyyətləri məhdudlaşdırılmışdır. Qazaxıstan Respublikasında isə prokurorluq orqanları qanunların, Prezidentin fərman və sərəncamlarının, hökumətin qərarlarının dəqiq və vahid şəkildə tətbiqinə ali nəzarəti, həmçinin cinayət təqibini həyata keçirir, dövlət ittihamını müdafiə edir və dövlətin

maraqlarını məhkəmədə təmsil edir. Hər üç ölkədə prokurorluq orqanlarının konstitusiya-hüquqi statusu ilə bağlı mövcud olan fərqlər, bu institutun hüquqi təbiətinin dərk edilməsində müəyyən çətinliklər yaradır. Tədqiqatda qoyulan əsas problem, post-sovet məkanında yerləşən bu üç dövlətdə prokurorluq orqanlarının konstitusiya-hüquqi statusunun müqayisəli təhlili əsasında onların hakimiyyət mexanizmindəki yerinin və rolunun müəyyənləşdirilməsidir.

## 1. Azərbaycan, Rusiya və Qazaxıstan Respublikalarının Prokurorluq Orqanlarının Konstitusiya-Hüquqi Statusu

Prokurorluğun statusu qeyd olunan dövlətlərdə ən yüksək konstitusion səviyyədə tənzimlənir. Prokuror fəaliyyəti haqqında elmdə və ümumiyyətlə hüquq elmində, bu dövlət-hüquq institutunun hakimiyyətin bölünməsi sistemindəki yeri, onun hansı dövlət hakimiyyəti qoluna aid olması məsələsi ənənəvi olaraq müzakirə olunur (Nadin, 2021). Azərbaycan Respublikasında prokurorluq orqanlarının konstitusiya-hüquqi statusu 1995-ci ildə qəbul edilmiş Konstitusiyanın Məhkəmə hakimiyyəti adlanan VII fəslində təsbit edilmişdir. Konstitusiyanın 133-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir, cinayət işləri başlayır və istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, məhkəmə qərarlarından protest verir (Azərbaycan Respublikasının Konstitusiyası, 2025). Dövlət orqanının hüquqi statusunun əsasını onun məqsədlərini, vəzifələrini, funksiyalarını və səlahiyyətlərini, həmçinin dövlətdə və cəmiyyətdə digər orqanlar arasında tutduğu hüquqi mövqeyi müəyyən edən hüquq normaları təşkil edir. Lakin dövlət orqanının rəsmi mövqeyini təsbit edən hüquq normaları arasında konstitusion-hüquqi qaydalar üstün yer tutur, çünki məhz onlar ümumi statut müəyyən edir və məcmu halında konstitusion-hüquqi (konstitusion) statusu formalaşdırır. Buna görə də dövlət orqanı kimi prokurorluğun ümumi hüquqi statusu, ilk növbədə, ölkənin Əsas Qanunu olan Konstitusiyada təsbit edilmiş normalarla müəyyən edilir (Shcherba, 2007). Konstitusiyada prokurorluq orqanlarının məhkəmə hakimiyyəti fəslində təsbit edilməsi onun hüquqi statusu ilə bağlı müəyyən nəzəri mübahisələrə səbəb olmuşdur. Belə ki, Azərbaycan hüquq elmində prokurorluğun hakimiyyət bölgüsü sistemindəki yeri ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəzi müəlliflər prokurorluğu məhkəmə hakimiyyətinin tərkib hissəsi kimi, digər müəlliflər isə prokurorluğun müstəqil konstitusion institut olduğunu və hakimiyyətin heç bir qoluna aid edilə bilməyəcəyini qeyd edirlər (Cəfərov, 2010). Prokurorluğun fəaliyyətinin növbəti xarakterik prinsipi mərkəzləşmədir. Mərkəzləşmə, aşağı instansiyalı prokurorların yuxarı instansiya prokurorlarına, bütün prokurorların isə prokurorluq orqanlarının bütün sisteminə rəhbərlik edən

Baş Prokurora tabe olduğunu ifadə edir. Bu zaman hər bir prokuror qərar qəbul etməkdə müstəqildir və bu qərarlara görə məsuliyyət daşıyır.

Vahidlik və mərkəzləşmə prinsipləri MDB ölkələrinin konstitusiyalarında, prokurorluğun bu və ya digər dövlətdə hansı dövlət hakimiyyəti qoluna aid olmasından asılı olmayaraq, demək olar ki, bütün konstitusiyalarda qeyd olunmuşdur. Rusiya (maddə 129), Qazaxıstan (maddə 83), Belarus (maddə 126), Azərbaycan (maddə 133), Özbəkistan (maddə 119), Tacikistan (maddə 94) konstitusiyalarında prokurorluğun aşağı instansiya prokurorların yuxarı instansiyalara və Baş Prokurora tabe olduğu mərkəzləşdirilmiş sistem olduğu təsbit edilmişdir. İstisna təşkil edən ölkələr isə Ukrayna və Qırğızıstandır və bu ölkələrin konstitusiyalarında yalnız prokurorluğun vahid sistem təşkil etdiyi qeyd olunmuşdur (Ivanyushko, 2011). Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrində yeni konstitusiyaların qəbul edilməsi hüquq-mühafizə orqanları sisteminin və strukturunun, o cümlədən prokurorluq orqanlarının radikal şəkildə transformasiyasına səbəb olmuşdur. Prokurorluq yeni yaradılmış hüquqi sistemlərdə hansı yeri tutmuşdur? Həmin ölkələrin yeni konstitusion müddəalarının təhlili aşağıdakı meylləri aşkara çıxarmağa imkan verir. MDB ölkələrinin (Gürcüstan istisna olmaqla) prokurorluq orqanları üçün ümumi başlanğıc odur ki, bu dövlətlərin konstitusiyalarında həmin quruma mütləq qaydada xüsusi yer ayrılmışdır.

Azərbaycan Respublikasında, Qazaxıstan Respublikasında, Moldova Respublikasında və Rusiya Federasiyasında prokurorluğun statusu ilə bağlı konstitusion müddəalar məhkəmə hakimiyyətinə həsr olunmuş fəsillərə daxil edilmişdir. Qırğızıstan Respublikasının Konstitusiyasında prokurorluğa "İcra hakimiyyəti" fəslində yer ayrılmışdır (Shcherba, 2007). Professor Z. Əsgərov qeyd edir ki, Azərbaycan Respublikası Konstitusiyasına görə məhkəmə hakimiyyətinə iki qrup orqanlar daxildir. Bura bilavasitə məhkəmələrin özləri və prokurorluq aiddir. Müəllifə görə, prokurorluğun işi məhkəmə hakimiyyəti ilə birbaşa bağlı deyil, bu orqan mərkəzləşdirilmiş müstəqil orqandır. Təşkilati cəhətdən heç bir orqandan, o cümlədən məhkəmədən asılı deyildir. Prokurorluq üzərində ali hakimiyyət orqanlarının nəzarəti müəyyənləşdirilmişdir (Əsgərov, 2024). Azərbaycan Respublikasının prokurorluq orqanlarının hüquqi statusu "Prokurorluq haqqında" 1999-cu il 7 dekabr tarixli Qanunla daha ətraflı tənzimlənir. Bu Qanunun 1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Prokurorluğu vahid mərkəzləşdirilmiş orqan olmaqla, Azərbaycan Respublikasının Baş prokurorunun rəhbərliyi altında fəaliyyət göstərən, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq tabe prokurorların Azərbaycan Respublikasının Baş prokuroruna tabe olması, aşağı prokurorların yuxarı prokurorlara tabe olması və Azərbaycan Respublikasının Baş

prokurorunun Azərbaycan Respublikasının Milli Məclisinin razılığı ilə vəzifəyə təyin edilməsi prinsipləri əsasında təşkil edilən orqandır (Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanunu 7 dekabr 1999).

Qanunun 4-cü maddəsinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyət istiqamətləri aşağıdakılardır:

* qanunla nəzərdə tutulmuş hallarda və qaydada cinayət işləri başlamaq və ibtidai istintaq aparmaq;

* ibtidai istintaqa prosessual rəhbərliyi həyata keçirmək;

* təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət etmək;

* məhkəmədə dövlət ittihamını müdafiə etmək;

* məhkəmədə iddia qaldırmaq (ərizə vermək);

* məhkəmə qərarlarından protest vermək (2, mad.4).

Azərbaycan Respublikasının Baş prokuroru Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. Azərbaycan Respublikası Baş prokurorunun müavinləri, Azərbaycan Respublikasının ixtisaslaşdırılmış prokurorluqlarının prokurorları və Naxçıvan Muxtar Respublikasının prokuroru Azərbaycan Respublikasının Baş prokurorunun təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər (2, mad.13).

Rusiya Federasiyasında prokurorluq orqanlarının konstitusiya-hüquqi statusu 1993-cü ildə qəbul edilmiş Konstitusiyanın "Məhkəmə hakimiyyəti və prokurorluq" adlanan 7-ci fəslində təsbit edilmişdir. Konstitusiyanın 129-cu maddəsinə əsasən, Rusiya Federasiyasının Prokurorluğu vahid mərkəzləşdirilmiş sistem təşkil edir və qanunların icrasına nəzarəti həyata keçirir (Konstitutsiya Rossiyskoy Federatsii, 2025). 2020-ci ildə Rusiya Federasiyasının Konstitusiyasına edilmiş dəyişikliklər nəticəsində prokurorluq orqanlarının konstitusiya-hüquqi statusu daha da təkmilləşdirilmişdir. Belə ki, Konstitusiyanın 129-cu maddəsinin yeni redaksiyasına əsasən, Rusiya Federasiyasının Baş prokuroru və onun müavinləri, federal dairələrin prokurorları, subyektlərin prokurorları, hərbi və digər ixtisaslaşdırılmış prokurorlar Rusiya Federasiyasının Prezidenti tərəfindən Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası ilə məsləhətləşmələrdən sonra vəzifəyə təyin və vəzifədən azad edilirlər (Avakgen, 2019). Rusiya Federasiyasının prokurorluq orqanlarının hüquqi statusu "Rusiya Federasiyasının Prokurorluğu haqqında" 1992-ci il 17 yanvar tarixli Federal Qanunla daha

ətraflı tənzimlənir. Bu Qanunun 1-ci maddəsinə əsasən, Rusiya Federasiyasının Prokurorluğu Rusiya Federasiyasının ərazisində qanunların icrasına nəzarəti, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsini, cəmiyyətin və dövlətin maraqlarının müdafiəsini həyata keçirən vahid federal mərkəzləşdirilmiş orqanlar sistemidir (Federal'nyy zakon ot 17 goda 1992 goda Rossiyskoy Federatsii, 1992).

Qanunun 1-ci maddəsinin 2-ci bəndinə əsasən, Rusiya Federasiyasının Prokurorluğu aşağıdakı əsas funksiyaları həyata keçirir:

* qanunların icrasına nəzarət;

* insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi;

* cəmiyyətin və dövlətin maraqlarının müdafiəsi;

* cinayətkarlığa qarşı mübarizə;

* qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi (Federal'nyy zakon ot 17 goda 1992 goda Rossiyskoy Federatsii, 1992).

Qazaxıstan Respublikasında prokurorluq orqanlarının konstitusiya-hüquqi statusu 1995-ci ildə qəbul edilmiş Konstitusiyanın "Məhkəmə və ədalət mühakiməsi" adlanan 7-ci bölməsində təsbit edilmişdir. Konstitusiyanın 83-cü maddəsinə əsasən, Qazaxıstan Respublikasının Prokurorluğu dövlət adından qanunların, Prezidentin fərman və sərəncamlarının, hökumətin qərarlarının dəqiq və vahid şəkildə tətbiqinə ali nəzarəti, cinayət təqibini həyata keçirir, dövlət ittihamını müdafiə edir və dövlətin maraqlarını məhkəmədə təmsil edir (Konstitutsiya Respubliki Kazakhstan, 2025). Qazaxıstan Respublikasının prokurorluq orqanlarının hüquqi statusu "Qazaxıstan Respublikasının Prokurorluğu haqqında" 2017-ci il 30 iyun tarixli Qanunla daha ətraflı tənzimlənir. Bu Qanunun 1-ci maddəsinə əsasən, Qazaxıstan Respublikasının Prokurorluğu Qazaxıstan Respublikasının adından qanunların, Prezidentin fərman və sərəncamlarının, hökumətin qərarlarının dəqiq və vahid şəkildə tətbiqinə ali nəzarəti və cinayət təqibini həyata keçirən, dövlət ittihamını müdafiə edən və dövlətin maraqlarını məhkəmədə təmsil edən mərkəzləşdirilmiş orqandır (Zakon Respubliki Kazakhstan ot 30 iyunya 2017 goda O prokurature, 2025).

Qanunun 4-cü maddəsinə əsasən, Qazaxıstan Respublikasının Prokurorluğu aşağıdakı əsas funksiyaları həyata keçirir:

* qanunların, Prezidentin fərman və sərəncamlarının, hökumətin qərarlarının dəqiq və vahid şəkildə tətbiqinə ali nəzarət;

* cinayət təqibi;

* dövlət ittihamının müdafiəsi;

* dövlətin maraqlarının məhkəmədə təmsil edilməsi;

*qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi (Zakon Respubliki Kazakhstan ot 30 iyunya 2017 goda O prokurature, 2025).

Qazaxıstan Respublikasının Baş prokuroru Qazaxıstan Respublikasının Prezidenti tərəfindən Senatın razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edilir. Qazaxıstan Respublikası Baş prokurorunun müavinləri Qazaxıstan Respublikasının Prezidenti tərəfindən Baş prokurorun təqdimatı əsasında vəzifəyə təyin və vəzifədən azad edilirlər (9, mad.12).

Beləliklə, prokurorluq Azərbaycanın və Qazaxıstanın konstitusiyalarında məhkəmə hakimiyyəti bölməsinə daxil edilmişdir. Belə ki, Azərbaycan Respublikasının konstitusiyasının 133-cü maddəsi, Azərbaycan prokurorluğuna həsr olunmuşdur və "Məhkəmə hakimiyyəti" adlı 7-ci fəsildə yerləşdirilmişdir. Həmçinin, 07.12.1999-cu il tarixli 767-IQ saylı "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsi, Azərbaycan Respublikasının prokurorluğunun məhkəmə hakimiyyəti sisteminə daxil olduğunu müəyyən edir.

Eyni zamanda, Qazaxıstan Respublikasında, prokurorluqla bağlı maddə (maddə 88) Konstitusiyanın 7-ci bölməsi "Məhkəmələr və ədalət" adı altında yerləşdirilsə də, bu orqan məhkəmə sisteminin bir hissəsi deyil, qanunvericilik aktlarının düzgün tətbiqinə nəzarət edir (Mikhaylovich, 2019). Azərbaycan, Rusiya və Qazaxıstan respublikalarının prokurorluq orqanlarının konstitusiya-hüquqi statusunun müqayisəli təhlili göstərir ki, hər üç ölkədə prokurorluq orqanları vahid mərkəzləşdirilmiş sistem təşkil edir və qanunların icrasına nəzarəti həyata keçirir. Bununla yanaşı, prokurorluq orqanlarının hakimiyyət bölgüsü sistemindəki yeri, funksional təyinatı və səlahiyyət dairəsi ilə bağlı müəyyən fərqlər də mövcuddur.

Hər üç ölkənin konstitusiyalarında prokurorluq orqanlarının konstitusion statusu məhkəmə hakimiyyəti ilə bağlı fəsildə öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasında prokurorluq orqanlarının hüquqi vəziyyətini müəyyən edən normalar "Məhkəmə hakimiyyəti" fəslində, Rusiya Federasiyasının Konstitusiyasında "Məhkəmə hakimiyyəti və prokurorluq" fəslində, Qazaxıstan Respublikasının Konstitusiyasında isə "Məhkəmə və ədalət mühakiməsi" bölməsində təsbit edilmişdir. Bu, Rusiya və Qazaxıstan respublikalarında prokurorluq orqanlarının məhkəmə hakimiyyətindən daha aydın şəkildə fərqləndirilməsini göstərir.

Azərbaycan Respublikasında prokurorluq orqanları cinayət işləri başlamaq və istintaq aparmaq, məhkəmədə dövlət ittihamını müdafiə etmək, məhkəmədə iddia qaldırmaq və məhkəmə qərarlarından protest vermək səlahiyyətlərinə malikdir. Rusiya Federasiyasında prokurorluq orqanları əsasən qanunların icrasına nəzarəti həyata keçirir və cinayət təqibini

həyata keçirmək səlahiyyətləri məhdudlaşdırılmışdır. Qazaxıstan Respublikasında isə prokurorluq orqanları qanunların, Prezidentin fərman və sərəncamlarının, hökumətin qərarlarının dəqiq və vahid şəkildə tətbiqinə ali nəzarəti və cinayət təqibini həyata keçirir, dövlət ittihamını müdafiə edir və dövlətin maraqlarını məhkəmədə təmsil edir (Bessarabov, 2001). Hər üç ölkədə prokurorluq orqanlarının rəhbərlərinin təyin edilməsi prosedurunda da müəyyən fərqlər mövcuddur. Azərbaycan Respublikasının Baş prokurorunu Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir. Rusiya Federasiyasında Baş prokuror və onun müavinləri, federal dairələrin prokurorları, subyektlərin prokurorları, hərbi və digər ixtisaslaşdırılmış prokurorlar Prezident tərəfindən Federal Məclisin Federasiya Şurası ilə məsləhətləşmələrdən sonra vəzifəyə təyin və vəzifədən azad edilirlər. Qazaxıstan Respublikasında isə Baş prokuror Prezident tərəfindən Senatın razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edilir.

Beynəlxalq təcrübə göstərir ki, prokurorluq orqanlarının konstitusiya-hüquqi statusu ölkənin hüquq sisteminin xüsusiyyətlərindən, tarixi ənənələrindən və siyasi quruluşundan asılı olaraq müxtəlif ola bilər. Avropa Şurasının Nazirlər Komitəsinin "Cinayət ədliyyə sistemində prokurorluğun rolu haqqında" 2000-ci il 6 oktyabr tarixli Tövsiyəsində qeyd edilir ki, prokurorluq orqanlarının statusu ölkənin hüquq sisteminin xüsusiyyətlərindən asılı olaraq müxtəlif ola bilər və vahid model mövcud deyil (On the role of prosecutors outside the criminal justice system.., 2012).

## 2. Azərbaycan, Rusiya və Qazaxıstan Respublikalarının Prokurorluq Orqanları Tərəfindən Həyata Keçirilən Funksiyaların Müqayisəli Təhlili

Azərbaycan Respublikasının prokurorluq orqanlarının funksiyaları Konstitusiyanın 133-cü maddəsində və "Prokurorluq haqqında" Qanunun 4-cü maddəsində təsbit edilmişdir. Bu normativ-hüquqi aktlara əsasən, Azərbaycan Respublikasının prokurorluq orqanları aşağıdakı əsas funksiyaları həyata keçirir:

Azərbaycan Respublikasının Konstitusiyasının 133-cü maddəsinin 1-ci hissəsinə əsasən, Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir (Azərbaycan Respublikasının Konstitusiyası, 2025). Bu funksiya "Prokurorluq haqqında" Qanunun 4-cü maddəsində də öz əksini tapmışdır. Qanunun 4.1.3-cü maddəsinə əsasən, prokurorluq orqanları təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət edir (Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanunu 7 dekabr 1999). İ. Cəfərov qeyd edir ki, *"Azərbaycan Respublikasının prokurorluq orqanlarının qanunların icra və tətbiq olunmasına*

*nəzarət funksiyası məhdud xarakter daşıyır və yalnız qanunla nəzərdə tutulmuş qaydada və hallarda həyata keçirilir"* (Cəfərov, 2010, s. 123). Bu, prokurorluq orqanlarının ümumi nəzarət funksiyasından imtina edilməsini və onun fəaliyyətinin daha çox cinayət təqibi sahəsinə yönəldilməsini göstərir.

Azərbaycan Respublikasının Konstitusiyasının 133-cü maddəsinin 1-ci hissəsinə əsasən, Azərbaycan Respublikasının Prokurorluğu cinayət işləri başlayır və istintaq aparır (Azərbaycan Respublikasının Konstitusiyası, 2025). Bu funksiya "Prokurorluq haqqında" Qanunun 4.1.1-ci maddəsində də öz əksini tapmışdır. Qanuna əsasən, prokurorluq orqanları qanunla nəzərdə tutulmuş hallarda və qaydada cinayət işləri başlayır və ibtidai istintaq aparır (Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanunu 7 dekabr 1999). Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 215-ci maddəsinə əsasən, prokurorluq orqanları Cinayət Məcəlləsinin müəyyən maddələri ilə nəzərdə tutulmuş cinayətlər üzrə ibtidai istintaqı aparır (3, mad. 215). Bu, prokurorluq orqanlarının cinayət təqibi sahəsində mühüm rol oynadığını göstərir.

"Prokurorluq haqqında" Qanunun 4.1.2-ci maddəsinə əsasən, prokurorluq orqanları ibtidai istintaqa prosessual rəhbərliyi həyata keçirir (Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanunu 7 dekabr 1999). Bu funksiya Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 84-cü maddəsində də öz əksini tapmışdır. Məcəllənin 84.1-ci maddəsinə əsasən, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və dövlət ittihamını müdafiə edən şəxsdir (3, mad.84). (Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, 2025).

Z. Əsgərov qeyd edir ki*, "prokurorluq orqanlarının ibtidai istintaqa prosessual rəhbərliyi həyata keçirmək funksiyası cinayət təqibinin səmərəliliyinin artırılmasına və insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmişdir"* (Əsgərov, 2024, s. 234).

Azərbaycan Respublikasının Konstitusiyasının 133-cü maddəsinin 1-ci hissəsinə əsasən, Azərbaycan Respublikasının Prokurorluğu məhkəmədə dövlət ittihamını müdafiə edir (Azərbaycan Respublikasının Konstitusiyası, 2025). Bu funksiya "Prokurorluq haqqında" Qanunun 4.1.4-cü maddəsində də öz əksini tapmışdır (Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanunu 7 dekabr 1999). Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 84.5-ci maddəsinə əsasən, dövlət ittihamçısı cinayət təqibi üzrə məhkəmə baxışı zamanı ittihamı müdafiə edən prokuror və ya prokurorluq orqanının digər vəzifəli şəxsidir (3, mad. 84.5). (Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, 2025).

Rusiya qanunvericiliyində cinayətkarlıqla mübarizə üzrə hüquq-mühafizə orqanlarının fəaliyyətinin koordinasiyası nəzərdə tutularaq, praktiki fəaliyyətdə bu mövcud olsa da, Azərbaycan qanunvericiliyində norma kimi təsbit edilməmişdir. Bu müqayisəli təhlili digər alim də araşdırmışdır (Akhmetova, 2014). Rusiya Federasiyasının prokurorluq orqanlarının funksiyaları Konstitusiyanın 129-cu maddəsində və "Rusiya Federasiyasının Prokurorluğu haqqında" Federal Qanunun 1-ci maddəsində təsbit edilmişdir. Bu normativ-hüquqi aktlara əsasən, Rusiya Federasiyasının prokurorluq orqanları aşağıdakı əsas funksiyaları həyata keçirir:

Rusiya Federasiyasının Konstitusiyasının 129-cu maddəsinin 1-ci hissəsinə əsasən, Rusiya Federasiyasının Prokurorluğu vahid mərkəzləşdirilmiş sistem təşkil edir və qanunların icrasına nəzarəti həyata keçirir (Konstitutsiya Rossiyskoy Federatsii, 2025). Bu funksiya "Rusiya Federasiyasının Prokurorluğu haqqında" Federal Qanunun 1-ci maddəsində də öz əksini tapmışdır. Qanunun 1-ci maddəsinin 2-ci bəndinə əsasən, Rusiya Federasiyasının Prokurorluğu qanunların icrasına nəzarəti həyata keçirir (Federal'nyy zakon ot 17 goda 1992 goda Rossiyskoy Federatsii, 1992).

"Rusiya Federasiyasının Prokurorluğu haqqında" Federal Qanunun 1-ci maddəsinin 2-ci bəndinə əsasən, Rusiya Federasiyasının Prokurorluğu cinayətkarlığa qarşı mübarizəni həyata keçirir. Bu funksiya Qanunun 8-ci maddəsində daha ətraflı tənzimlənir. Maddəyə əsasən, prokurorluq orqanları cinayətkarlığa qarşı mübarizə sahəsində digər hüquq-mühafizə orqanları ilə əməkdaşlıq edir və onların fəaliyyətini əlaqələndirir (7, mad. 1, 8) .

Qazaxıstan Respublikasının prokurorluq orqanlarının funksiyaları Konstitusiyanın 83-cü maddəsində və "Qazaxıstan Respublikasının Prokurorluğu haqqında" Qanunun 4-cü maddəsində təsbit edilmişdir (Konstitutsiya Respubliki Kazakhstan, 2025; Zakon Respubliki Kazakhstan ot 30 iyunya 2017 goda O prokurature, 2025). Bu normativ-hüquqi aktlara əsasən, Qazaxıstan Respublikasının prokurorluq orqanları aşağıdakı əsas funksiyaları həyata keçirir:

Qazaxıstan Respublikasının prokurorluq orqanlarının funksiyaları Konstitusiyanın 83-cü maddəsində və "Qazaxıstan Respublikasının Prokurorluğu haqqında" Qanunun 4-cü maddəsində təsbit edilmişdir (Konstitutsiya Respubliki Kazakhstan, 2025; Zakon Respubliki Kazakhstan ot 30 iyunya 2017 goda O prokurature, 2025). Bu normativ-hüquqi aktlara əsasən, Qazaxıstan Respublikasının prokurorluq orqanları aşağıdakı əsas funksiyaları həyata keçirir:

- Qazaxıstan Respublikasının Prokurorluğu dövlət adından qanunların, Prezidentin fərman və sərəncamlarının, hökumətin qərarlarının dəqiq və vahid şəkildə tətbiqinə ali nəzarəti həyata keçirir;
- Qazaxıstan Respublikasının Prokurorluğu cinayət təqibini həyata keçirir.

Qazaxıstan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 58-ci maddəsinə əsasən, prokuror cinayət təqibini həyata keçirən vəzifəli şəxsdir və cinayət işi üzrə ibtidai istintaqa prosessual rəhbərliyi həyata keçirir. Qazaxıstan Respublikasının Prokurorluğu dövlət ittihamını müdafiə edir (Ugolovno-protsessual'nyy kodeks Respubliki Kazakhstan ot 4 iyulya 2014 goda). Qazaxıstan Respublikasının prokurorluq orqanlarının cinayət təqibini həyata keçirmək funksiyası onun əsas funksiyalarından biridir və bu funksiya cinayətkarlığa qarşı mübarizənin səmərəliliyinin artırılmasına yönəlmişdir.

Rusiya Federasiyası və Qazaxıstan Respublikasının prokurorluq haqqında qanunlarının müqayisəli hüquqi analizi göstərir ki, Qazaxıstan Respublikasının prokurorluğu, Rusiya Federasiyasının prokurorluğuna nisbətən daha geniş funksiyalar siyahısına malikdir. Prokuror nəzarəti, Rusiya Federasiyasından fərqli olaraq, Qazaxıstanda ali statusa malikdir. Burada prokurorluq, Rusiya Federasiyasında yerinə yetirdiyi funksiyalardan əlavə, dövlət hüquqi statistikasını formalaşdırır ki, bu da statistik göstəricilərin bütövlüyünü, obyektivliyini və kifayətliliyini təmin etmək məqsədini güdür. Prokurorluq, xüsusi qeydiyyatları aparır, hüquqi statistika və xüsusi qeydiyyatlar sahəsində qanunvericiliyin tətbiqinə nəzarət edir; qanunçuluğun, hüquq qaydasının təmin edilməsi və cinayətkarlıqla mübarizə sahəsində fəaliyyətləri koordinasiya edir.

Lakin qeyd etmək lazımdır ki, Rusiya Federasiyası və Qazaxıstan Respublikasının prokurorluğunun funksiyaları, müəyyən fərqliliklərə baxmayaraq, cəmiyyət və dövlət içində prokurorluğun rolunu və sosial təyinatını həyata keçirmək üçün kifayət qədərdir. Onun məqsəd və vəzifələri, prokurorluğun dövlət orqanı kimi hüquqi mahiyyətini tam şəkildə ifadə edir, bu da qanunçuluğun və hüquq qaydasının təmin edilməsini nəzərdə tutur (Akhmetova, 2014). Azərbaycan, Rusiya və Qazaxıstan respublikalarının prokurorluq orqanlarının funksiyalarının müqayisəli təhlili göstərir ki, hər üç ölkədə prokurorluq orqanları qanunların icrasına nəzarəti həyata keçirir. Bununla yanaşı, prokurorluq orqanlarının funksiyaları ilə bağlı müəyyən fərqlər də mövcuddur. Azərbaycan Respublikasında prokurorluq orqanlarının qanunların icra və tətbiq olunmasına nəzarət funksiyası məhdud xarakter daşıyır və yalnız qanunla nəzərdə tutulmuş qaydada və hallarda həyata keçirilir. Rusiya Federasiyasında prokurorluq orqanlarının qanunların icrasına nəzarət funksiyası geniş xarakter daşıyır və bütün dövlət orqanlarının, yerli özünüidarəetmə orqanlarının, vəzifəli şəxslərin və təşkilatların fəaliyyətini əhatə edir. Qazaxıstan Respublikasında isə prokurorluq orqanları qanunların, Prezidentin fərman və sərəncamlarının, hökumətin qərarlarının dəqiq və vahid şəkildə tətbiqinə ali nəzarəti həyata keçirir.

Hər üç ölkədə prokurorluq orqanları cinayət təqibini həyata keçirir. Lakin bu funksiyanın həyata keçirilməsi mexanizmi və əhatə dairəsi fərqlidir. Azərbaycan Respublikasında prokurorluq orqanları cinayət işləri başlamaq və istintaq aparmaq, məhkəmədə dövlət ittihamını müdafiə etmək səlahiyyətlərinə malikdir. Rusiya Federasiyasında prokurorluq orqanlarının cinayət təqibi sahəsindəki səlahiyyətləri məhdudlaşdırılmışdır və bu səlahiyyətlər əsasən İstintaq Komitəsinə verilmişdir. Qazaxıstan Respublikasında isə prokurorluq orqanları cinayət təqibini həyata keçirir və məhkəmədə dövlət ittihamını müdafiə edir.

Hər üç ölkədə prokurorluq orqanları insan hüquq və azadlıqlarının müdafiəsi funksiyasını həyata keçirir. Lakin bu funksiyanın həyata keçirilməsi mexanizmi və əhatə dairəsi fərqlidir. Rusiya Federasiyasında prokurorluq orqanlarının insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi funksiyası daha geniş əhatə dairəsinə malikdir və bu funksiya "Rusiya Federasiyasının Prokurorluğu haqqında" Federal Qanunda ayrıca maddədə təsbit edilmişdir. Azərbaycan və Qazaxıstan respublikalarında isə bu funksiya daha çox qanunların icra və tətbiq olunmasına nəzarət funksiyası çərçivəsində həyata keçirilir. Rusiya Federasiyasının prokurorluğu insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin konstitusion sisteminin institusional elementlərindən biri olub, dövlət hakimiyyəti orqanları sistemində malik olduğu mövqe ilə müəyyən edilən xüsusi yer tutur.

Dövlət orqanlarının spesifik alt sistemi olaraq, Rusiya Federasiyasının prokurorluğu bununla belə dövlət hakimiyyətinin heç bir qoluna aid deyil və "çəkindirmə və tarazlaşdırma" sisteminin bir hissəsi kimi çıxış edir. O, heç kimdən asılı olmayaraq, istənilən qanun pozuntularının aradan qaldırılması üçün tədbirlər görür, hakimiyyətlərin bölgüsünün və onların qarşılıqlı fəaliyyətinin təmin edilməsində fəal iştirak edir (Rosinskiy, 2010). Qazaxıstan və Rusiya qanunvericiliyi prokurorluğun funksiyalarının siyahısını ehtiva etmir, lakin Rusiya Federasiyasının "Prokurorluq haqqında" Qanununda prokurorluğun funksiyalarına bir neçə dəfə istinad edildiyi halda, Qazaxıstan qanunvericiliyi yalnız bir dəfə – 81-VI saylı qanunun 3-cü maddəsinin 3-cü bəndində "prokurorluq orqanlarının öz funksiyalarını və səlahiyyətlərini həyata keçirərkən fəaliyyətinə müdaxilə qadağandır" ifadəsi ilə məhdudlaşmışdır. Lakin, Rusiya Federasiyası və Qazaxıstan qanunvericiliyinin sistemli təhlilinə əsaslanaraq, prokurorluğun bütün funksiyalarını nəzarət funksiyaları və qeyri-nəzarət funksiyaları olaraq iki qrupa ayırmaq mümkündür (Mukhametzhanova, 2020).

MDB ölkələrinin qanunvericiliyinin analizi prokurorluq institutu ilə bağlı məsələlərin tənzimlənməsi baxımından müxtəlif yanaşmaların mövcud olduğunu göstərir. Prokurorluğun fəaliyyəti strukturunun MDB iştirakçı dövlətlərində seçilmiş modellərə uyğun olaraq təqdim

edilməsi həyata keçirilmişdir. Dörd ölkədə (Azərbaycan, Ermənistan, Ukrayna və Moldova) ümumi nəzarət funksiyası ləğv edilmişdir. Yeddi dövlətdə (Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan) isə ümumi nəzarət funksiyası saxlanılmışdır (Konyuk, 2024).

**Nəticə**

Aparılmış tədqiqat Azərbaycan, Rusiya və Qazaxıstan respublikalarının prokurorluq orqanlarının konstitusiya-hüquqi statusunun müqayisəli təhlilini həyata keçirməyə imkan vermişdir. Bu müqayisəli təhlil nəticəsində bir sıra mühüm elmi nəticələr əldə edilmişdir. Bu tədqiqat müqayisəli konstitusiya hüququ sahəsində mövcud ədəbiyyata əhəmiyyətli töhfə verir, çünki Azərbaycan, Rusiya və Qazaxıstan respublikalarının prokurorluq orqanlarının konstitusiya-hüquqi statusunun kompleks müqayisəli təhlilini təqdim edir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, prokurorluq orqanlarının hakimiyyət bölgüsü sistemindəki yeri ilə bağlı vahid yanaşma mövcud deyil və bu, hər bir ölkənin hüquq sisteminin xüsusiyyətlərindən, tarixi ənənələrindən və siyasi quruluşundan asılıdır. Əldə edilmiş nəticələr post-sovet məkanında prokurorluq institutunun transformasiyası prosesinin xüsusiyyətlərini və tendensiyalarını anlamaq baxımından mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir. Tədqiqat göstərir ki, sovet prokurorluq modelindən miras qalmış ümumi xüsusiyyətlərə baxmayaraq, hər bir ölkə öz hüquq sisteminin xüsusiyyətlərinə və demokratik dəyərlərə uyğun olaraq prokurorluq institutunu transformasiya etmişdir.

Tədqiqat göstərir ki, hər üç ölkədə prokurorluq orqanlarının konstitusiya-hüquqi statusu sovet prokurorluq modelindən miras qalmış ümumi xüsusiyyətlərə malik olsa da, müstəqillik dövründə hər bir ölkənin hüquq sisteminin xüsusiyyətlərinə uyğun olaraq əhəmiyyətli transformasiyalara məruz qalmışdır. Hər üç ölkədə prokurorluq orqanları vahid mərkəzləşdirilmiş sistem təşkil edir və qanunların icrasına nəzarəti həyata keçirir. Bununla yanaşı, prokurorluq orqanlarının hakimiyyət bölgüsü sistemindəki yeri, funksional təyinatı və səlahiyyət dairəsi ilə bağlı əhəmiyyətli fərqlər də mövcuddur.

Azərbaycan Respublikasında prokurorluq orqanları Konstitusiyanın "Məhkəmə hakimiyyəti" fəslində təsbit edilmişdir, lakin onun məhkəmə hakimiyyətinin tərkib hissəsi olub-olmaması məsələsi mübahisəli məsələ hesab olunur. Əslində prokurorluq məhkəmə hakimiyyəti orqanı deyil, ədalət mühakiməsini həyata keçirmir. Odur ki, məhkəmə hakimiyyəti fəslində hüquqi statusunu müəyyən edən normanın təsbiti onun məhkəmə hakimiyyəti orqanı olmasını qeyd etməyə əsas vermir. Rusiya Federasiyasında prokurorluq orqanları Konstitusiyanın "Məhkəmə hakimiyyəti və prokurorluq" fəslində təsbit edilmişdir, bu isə

prokurorluğun məhkəmə hakimiyyətindən daha aydın şəkildə fərqləndirilməsini göstərir. Qazaxıstan Respublikasında isə prokurorluq orqanları Konstitusiyanın "Məhkəmə və ədalət mühakiməsi" bölməsində təsbit edilmişdir.

Funksional təyinat baxımından Azərbaycan Respublikasının prokurorluq orqanları daha geniş səlahiyyətlərə malikdir və cinayət təqibi sahəsində mühüm rol oynayır. Rusiya Federasiyasında prokurorluq orqanlarının cinayət təqibi sahəsindəki səlahiyyətləri məhdudlaşdırılmış və bu səlahiyyətlər əsasən İstintaq Komitəsinə verilmişdir. Qazaxıstan Respublikasında isə prokurorluq orqanları qanunların, Prezidentin fərman və sərəncamlarının, hökumətin qərarlarının dəqiq və vahid şəkildə tətbiqinə ali nəzarəti həyata keçirir. Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, əldə edilmiş nəticələr prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi və onların konstitusiya-hüquqi statusunun daha da inkişaf etdirilməsi üçün istifadə edilə bilər. Xüsusilə, Azərbaycan Respublikasında prokurorluq orqanlarının konstitusiya-hüquqi statusunun təkmilləşdirilməsi üçün Rusiya və Qazaxıstan təcrübəsindən istifadə edilə bilər. Ümumilikdə, aparılmış tədqiqat Azərbaycan, Rusiya və Qazaxıstan respublikalarının prokurorluq orqanlarının konstitusiya-hüquqi statusunun müqayisəli təhlilini həyata keçirməyə və bu sahədə mövcud olan oxşar və fərqli cəhətləri aşkarlamağa imkan vermişdir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, hər üç ölkədə prokurorluq orqanlarının konstitusiya-hüquqi statusu sovet prokurorluq modelindən miras qalmış ümumi xüsusiyyətlərə malik olsa da, müstəqillik dövründə hər bir ölkənin hüquq sisteminin xüsusiyyətlərinə uyğun olaraq əhəmiyyətli transformasiyalara məruz qalmışdır.

## Ədəbiyyat

Akhmetova, A. B. (2014). Razvitaya analiticheskaya situatsiya Izdaniya i Respubliki Kazakhstan i Rossiyskaya Federatsiya. Izvestiya vysshikh uchebnykh zavedeniy. Povolzhskiy rayon. *Nablyudeniya, 1* (29), 61-67. (In Russian).

Avakgen, S. A. (2019). *Postoyannaya praktika. Forma: obucheniye student*. (v 2 t). INFRA. (In Russian).

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. 2025, https://e-qanun.az/

Azərbaycan Respublikasının Konstitusiyası. 2025, https://e-qanun.az/framework

Bessarabov, V. G. (2001). *Prosecutor's Office in the system of state control of the Russian Federation* [dissertation for the degree of Doctor of Legal Sciences]. Moscow.

Cəfərov, İ. (2010). *Azərbaycan Respublikası Konstitusiyasının şərhi.* Hüquq ədəbiyyatı nəşriyyatı.

Əsgərov, Z. (2024). *Konstitusiya hüququ.* Bakı Universiteti nəşriyyatı.

Federal'nyy zakon ot 17 goda 1992 goda Rossiyskoy Federatsii. 2025, (In Russian). https://www.consultant.ru/

Ivanyushko, D.V. (2011). Constitutional and legal status of the prosecutor's office in the CIS countries. *Actual Problems of Russian Law,* 2, 314-323.(In Russian).

Konstitutsiya Respubliki Kazakhstan. 2025, https://www.akorda.kz/ru/ (In Russian).

Konstitutsiya Rossiyskoy Federatsii, 2025, http://www.constitution. (In Russian).

Konyuk, A. B. (2024). *Organizatsii i sistemy SNG.* (y.y.). (In Russian).

Mikhaylovich, K. M. (2019). Zakupki i sistemnaya organizatsiya stran SNG. *Rossiyskiy zhurnal pravovykh issledovaniy, 6 -3* (20). 130-137. (In Russian).

Mukhametzhanova, D. E. (2020). Povysheniye statusa ili organizatsii Respubliki Kazakhstan: opyt sravnitel'nogo issledovaniya. Skif. *Voprosy studencheskoy nauki*, *5-2* (45), 272-276. (In Russian).

Nadin, A. N. (2021). Features of the legal status of prosecutor's offices in the CIS member states (on the example of Russia, Kazakhstan and Belarus). *Electronic supplement to the Russian Law Journal,* 2, 42-51.

On the role of prosecutors outside the criminal justice system (adopted by the Committee of Ministers of the Council of Europe at the 1151st meeting of the Ministers' Representatives on September 19, 2012) https://rm.coe.int/1680a21d04.

Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanunu. 7 dekabr 1999, http://www.e-qanun.az/

Rosinskiy, V. V. (2010). Sootvetstviye zayavleniya Prokurora Rossiyskoy Federatsii. (y.y.). (In Russian).

Shcherba, S.P. (Ed.). (2007). *Prosecutor's Office in the CIS Countries: Legal Status, Functions, Powers: Scientific and Educational Manual*. Publishing House. (In Russsian).

Ugolovno-protsessual'nyy kodeks Respubliki Kazakhstan ot 4 iyulya 2014 goda. 2025, https://kodeksy-kz.com/ka/(In Russian).

Zakon Respubliki Kazakhstan ot 30 iyunya 2017 goda O prokurature, 2025, https://online.zakon. (In Russian).